36 (1342) 12-18 sentyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏMİZDƏ COP29-UN YÜKSƏK SƏVİYYƏDƏ KEÇİRİLMƏSİ ÜÇÜN LAZIMI İNFRASTRUKTUR YARADILIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə edib.

Eyni zamanda, dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verilib. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edilib.

Qeyd olunub ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib.

## "İTALİYA-AZƏRBAYCAN UNİVERSİTETİ ƏMƏKDAŞLIĞIMIZIN ŞAXƏLƏNDİRİLMƏSİNİN BARİZ NÜMUNƏSİDİR"

"Artıq Azərbaycanda İtaliya-Azərbaycan Universiteti fəaliyyət göstərir. Bu, bizim əməkdaşlığımızın şaxələndirilməsinin bariz nümunəsidir".

Bunu Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı deyib.

İtaliyanın beş aparıcı universitetinin Azərbaycanda olan tərəf müqabilləri ilə birgə təhsil ocağı təsis etdiklərini xatırladan dövlətimizin başçısı bildirib: *"Orada təhsil almağa başlayacaq tələbələr Azərbaycan ilə İtaliya arasında təbii körpü rolunu oynayacaqlar. Onlar italyan dilini daha səlis biləcəklər. İtaliyanın tarixi irsini və mədəniyyətini də daha dərindən öyrənəcəklər".*

## "AZƏRBAYCAN RUSİYA İLƏ UKRAYNA ARASINDA MÜNAQİŞƏNİN HƏLLİNDƏ İŞTİRAK ETMƏYƏ HAZIRDIR"

Prezident İlham Əliyev Rusiya ilə Ukrayna arasında münaqişənin həllində Azərbaycanın da iştirakının mümkünlüyünü istisna etməyib.

O, bu fikri Beynəlxalq Çernobbio Forumunda moderatorun suallarını cavablandırarkən qeyd edib. *"Əgər hipotetik imkandan danışırıqsa, bu, tamamilə mümkündür. Əvvələ nəzərə alsaq ki, Rusiya və Ukrayna ilə birlikdə 70 il SSRİ-nin tərkibində olmuşuq, biz şəxsi əlaqələr səviyyəsində və siyasi müstəvidə çoxşaxəli əlaqələr saxlayırıq. Bu gün biz Rusiya və Ukrayna ilə münasibətlərimizi çox yaxşı hesab edirik. Biz Ukraynanın və bütün ölkələrin ərazi bütövlüyünü və suverenliyini qətiyyətlə dəstəkləyirik. Amma, eyni zamanda, biz anti-Rusiya sanksiya kampaniyasının bir hissəsi olmamışıq və olmayacağıq"*, - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycanın iki ölkə ilə münasibətlərin praqmatizmini nəzərə alaraq bu prosesdə müəyyən rol oynaya biləcəyini vurğulayan Prezident İlham Əliyev qeyd edib: *"Biz heç vaxt bu prosesla bağlı təşəbbüs irəli sürməmişik. Bilirəm ki, bu işdə iştirak etmək istəyənlər çoxdur. Amma iştirakımız tələb olunarsa, biz hazırıq".*

## "AŞPA ÜZVLƏRİNİN AZƏRBAYCANA SƏFƏRİNƏ QOYULAN QADAĞA ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİNİN BU TƏŞKİLATA QAYITMASINDAN SONRA LƏĞV EDİLƏCƏK"

Dövlətimizin başçısı bu sözləri Beynəlxalq Çernobbio Forumunda moderatorun suallarını cavablandırarkən deyib.

Prezident İlham Əliyev vurğulayıb: *"Bu ilin yanvarında baş verənlər (AŞPA-da - red.) qırmızı xətti keçdi. Keçən il biz öz suverenliyimizi tamamilə bərpa etdik. Beləliklə, ötən ilin sentyabrında Azərbaycan ərazisində separatizmin kökü tamamilə kəsildi. Biz Ukraynanın etməyə çalışdığından fərqli heç nə etməmişik. Qərbin böyük dəstəyinə baxmayaraq, Ukrayna öz suverenliyini bərpa etmək üçün uğursuz səylər göstərir. Biz heç bir dəstək olmadan öz suverenliyimizi bərpa etdik. Məhz bundan bir neçə ay sonra AŞPA bizim nümayəndə heyətini səsvermə hüququndan məhrum etmək qərarına gəldi. Yəni, biz öz suverenliyimizi bərpa etdiyimiz üçün bizə qarşı sanksiyalar tətbiq edilib".*

Prezident qeyd edib ki, Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin uzadılmasının əleyhinə səs verən AŞPA üzvlərinin "persona non-qrata" elan edilməsi qərarı adekvat olub. *"Qərarımız onlara cavab idi. Əgər qərarlarını dəyişib bizim haqqımızı bərpa etsələr, o zaman bu embarqo deyilən şey də aradan qaldırılacaq. Nümayəndə heyətimiz qayıtmalıdır, bundan sonra qadağa da götürüləcək"*, - deyə dövlət başçısı əlavə edib.

## "AZƏRBAYCAN VƏ İTALİYA UZUN İLLƏRDİR STRATEJİ TƏRƏFDAŞ OLARAQ FƏALİYYƏT GÖSTƏRİR"

"Uzun illərdir ki, Azərbaycan və İtaliya strateji tərəfdaş olaraq fəaliyyət göstərir və müvafiq bəyannamə 10 il bundan qabaq qəbul edilmişdir. Bizim əlaqələrimiz bütün sahələri əhatə edir, müntəzəm siyasi təmaslarımız var".

Bu sözləri Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı söyləyib.

Bu səfərin 2020-ci ildən bəri onun İtaliyaya üçüncü səfəri olduğunu və 2018-ci ildə Prezident Mattarellanın Azərbaycanda səfərini xatırladan dövlətimizin başçısı qeyd edib: *"Bizim yüksək səviyyəli təmaslarımız onu nümayiş etdirir ki, biz çox yaxın tərəfdaşlarıq".*




## "İTALİYA AZƏRBAYCANIN DÜNYADA BİR NÖMRƏLİ TİCARƏT TƏRƏFDAŞIDIR"

"İtaliya Azərbaycanın dünyada bir nömrəli ticarət tərəfdaşıdır. Ötən il bizim ticarət dövriyyəmiz 16 milyard ABŞ dollarına bərabər olmuşdur və əlaqələrimizin genişlənməsi üçün potensial yalnız enerji sektoru üzrə deyil, digər sektorlar üzrə də mövcuddur".

Bu sözləri Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı deyib.

*"Azərbaycan İtaliyanın bir nömrəli neft və iki nömrəli qaz təchizatçısıdır. Bu, bizim əməkdaşlığımızın mühüm sahəsini təşkil edir"*, - deyə dövlətimizin başçısı əlavə edib.

## "CƏNUB QAZ DƏHLİZİ BU GÜN 10 ÖLKƏNİN ENERJİ TƏHLÜKƏSİZLİYİNİ TƏMİN EDİR"

"Enerji təchizatı bu gün onu açıq şəkildə nümayiş etdirir ki, ölkələrin milli təhlükəsizliyi enerji təhlükəsizliyi ilə sıx bağlıdır".

Bu barədə Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı bildirib.

Azərbaycandan İtaliyaya uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizinin bu gün 10 ölkənin enerji təhlükəsizliyini təmin etdiyini vurğulayan dövlətimizin başçısı deyib: *"Bu gün 10 ölkə Azərbaycandan qaz alır və bu ölkələrin yeddisi Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı Ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaşı adlandırır".*




## "TƏKCƏ QAFQAZDA DEYİL, DAHA GENİŞ COĞRAFİYADA AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN VƏ SUVERENLİYİNİN BƏRPASI BAŞLICA DƏYİŞİKLİK OLUB"

"Otuz il ərzində bizim beynəlxalq səviyyədə tanınmış ərazimiz Ermənistanın işğalı altında olmuşdur".

Bu fikirləri Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı səsləndirib. Dövlətimizin başçısı xatırladıb ki, beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının mütləq icra edilməli olan dörd qətnaməsinin olmasına baxmayaraq, bu işğal davam edirdi. ATƏT-in bu məsələ ilə məşğul olması üçün xüsusi qrup təsis etdiyini deyən dövlətimizin başçısı 28 il ərzində həmin qrupun sıfır nəticə hasil etdiyini vurğulayıb.

# Azərbaycan "Belarus Nəqliyyat Həftəsi - 2024" beynəlxalq forumunda iştirak edir



Minskdə "Belarus Nəqliyyat Həftəsi - 2024" beynəlxalq ixtisaslaşmış forumu işə başlayıb.

AZƏRTAC BELTA-ya istinadla xəbər verir ki, nəqliyyat həftəsinə "Nəqliyyat və logistika" beynəlxalq ixtisaslaşmış sərgisi və tematik biznes proqramı daxildir. Forumda Azərbaycan, Qazaxıstan, Özbəkistan və Rusiyanın nəqliyyat idarələrinin rəhbərləri, Rusiya Federasiyasının parlament və regional hökumətlərinin, həmçinin Belarus, Rusiya və Çinin aparıcı nəqliyyat universitetlərinin nümayəndələri iştirak edirlər.

İşgüzar proqramın əsas tədbirləri Avrasiya İqtisadi Komissiyasının və İttifaq Dövlətinin Daimi Komitəsinin nümayəndələrinin iştirakı ilə "Avrasiyanın nəqliyyatı və logistikası: yeni imkanlar" plenar iclası və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin nəqliyyat üzrə koordinasiya müşavirəsinin (MDB NKM) sahə şuralarının 14-cü sessiyasının plenar iclası olacaq.

"Belarus Nəqliyyat Həftəsi - 2024" zamanı elmi-praktik konfranslar, seminarlar və dəyirmi masalar keçiriləcək. Nəqliyyat və logistika sektorunun aktual inkişaf məsələləri, tendensiyalar, infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşma, beynəlxalq əməkdaşlıq, hava, avtomobil, dəmir yolu və su nəqliyyatı ilə daşımaların inkişafının əsas istiqamətləri müzakirə olunacaq.

Tematik müzakirələrdə 100-dən çox belaruslu və beynəlxalq ekspert iştirak edəcək.

XIV Beynəlxalq "Nəqliyyat və Logistika" İxtisaslaşdırılmış Sərgisi çərçivəsində nəqliyyat, logistika və ekspeditor şirkətləri, nəqliyyat və logistika mərkəzlərinin, logistika mərkəzlərini təchiz etmək üçün avadanlıq təchizatçıları, avtomobil və dəmir yolu avadanlıqları istehsalçıları və dilerləri, aviaşirkətlər, Belarus, Rusiya və Çin dəmir yolu administrasiyaları ekspozisiyalarını təqdim edəcəklər.

# Bu il Azərbaycanın neft ixracı 16 milyon ton olub

Cari ilin yanvar-avqust ayları ərzində ölkədə neft (kondensatla birlikdə) hasilatı 40 faiz azalaraq təxminən 19,3 milyon ton təşkil edib.

AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadla xəbər verir ki, respublika üzrə neft hasilatının 11,1 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 2,8 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,4 milyon tonu (kondensat) Abşeron yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 5 milyon ton təşkil edib.

Hesabat dövründə təxminən 16 milyon ton neft (kondensatla birlikdə) nəql olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21 faiz azdır. Bunun 13,9 milyon tonu konsorsiumun, 2,1 milyon tonu isə SOCAR-ın payına düşür.

Cari ilin yanvar-avqust aylarında ölkədə neftin emalı ötən ilin eyni dövrü ilə sabit qalaraq 4,4 milyon ton təşkil edib.

Bu ilin avqust ayında gündəlik neft (kondensatla birlikdə) hasilatı 76 min 45 ton olub. Bunun 64 min 870 tonunu xam neft, 11 min 175 tonunu kondensat təşkil edib.

# Bakıda "Chain Reaction 2024" tədbiri təşkil olunub




İqtisadiyyat Nazirliyinin tabeliyindəki Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və FARI Solutions tərəfindən Bakıda keçirilən "Chain Reaction 2024" tədbiri dünyanın ən böyük kriptovalyuta birjası Binance və aparıcı blokçeyn ekosisteminin dəstəyi ilə keçirilib.

Blokçeyn və paylanmış reyestr texnologiyası (DLT), kvant informasiya sistemi, Veb3, 4-cü sənaye inqilabı texnologiyaları, süni intellekt və rəqəmsal aktivlər kimi inkişaf etməkdə olan texnologiyalara yönəlmiş ikigünlük tədbirə 60-dan çox yerli və beynəlxalq spiker qatılıb.

Konfransda Binance-in Qlobal Baş Marketinq Direktoru Reyçel Konlan və Qlobal Regional Bazarlar üzrə rəhbəri Vişal Saçindran, həmçinin Azərbaycanın İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin sədri İnara Vəliyeva, 4-cü Sənaye İnqilabı Mərkəzinin (C4IR) icraçı direktoru Fariz Cəfərov, Lixtensteyn Maliyyə Bazarının İnnovasiya və Rəqəmsallaşma İdarəsinin müdir müavini Dr. Anjelika Layr kimi tanınmış simalar çıxış edəcəklər.

Tədbirdə, həmçinin Barings, Vodafone, Syz Group, Beincrypto, Jadwa Investment, Dow Jones, EY, Deloitte kimi dünya miqyaslı şirkətlərin nümayəndələri də iştirak ediblər.

Təşkilatçılar bildirib ki, texnologiya həvəskarları, kripto yenilikçilər və sənayeyə yeni qoşulanlar bu əhəmiyyətli tədbirdə iştirak edib. Rəqəmsal iqtisadiyyatın gələcəyini formalaşdıran yenilikləri öyrənmək, vizionerlərlə ünsiyyət qurmaq və kriptovalyutalar, Web3 inkişafı və tokenləşdirilmiş aktivlər kimi anlayışlarla tanış olmaq üçün nadir bir fürsətdir. Tədbirdə həmçinin Bitcoin-in iş sübutu (proof-of-work) kimi konsensus protokollarının davamlılığı və inkişaf perspektivləri ilə bağlı mühüm müzakirələr aparılıb.

# "CAREC" COP29-da iqlim tədbirləri ilə bağlı birgə çağırış edəcək

Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramının iqlim məsələləri ilə bağlı qərarları noyabr ayında COP29 tədbirlərində təqdim ediləcək.

Trend bu barədə Asiya İnkişaf Bankının (AİB) ekspertlərinin Bakıda keçirilən iqlim dəyişməkləri üzrə işçi qrupunun 3-cü iclasının nəticələrinə istinadən xəbər verir.

Qeyd edək ki, AİB tərəfindən 1997-ci ildə təşkil olunan CAREC proqramının əsas məqsədi Mərkəzi Asiya, Cənubi Qafqaz və Cənubi Asiya ölkələri arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir.

"Noyabr ayında keçiriləcək iqlim sammitində CAREC iştirakçı ölkələri iqlim dəyişiklikləri ilə mübarizəni gücləndirmək üçün birgə çağırış edəcəklər", - AİB-dən bildirilib.

Xatırladaq ki, 11-22 noyabr tarixlərində Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı keçiriləcək.

# Ekoloji təmiz nəqliyyat vasitələrinin kreditləşməsində müsbət dinamika müşahidə olunur

Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) tərəfindən aparılmış requlyativ güzəştlər nəticəsində 2022-ci ildən bu tərəfə son 18 ayda elektrik və hibrid minik avtomobillərinin banklar tərəfindən kreditləşməsi say olaraq 8 dəfə, məbləğ olaraq 6,5 dəfə artıb.




AMB-dən bildirilib ki, nəticədə 2022-ci ilin sonuna bankların kredit portfelində elektrik və hibrid avtomobillərin cəmi minik avtomobil portfelində payı 17,8 faiz olduğu halda, cari ilin iyunun 30-u tarixində müvafiq göstərici 59,9 faiz təşkil edib.

# Azərbaycan Avropaya qaz ixracını 10 faizdən çox artırıb



Cari ilin 8 ayı ərzində ölkədə təbii qaz hasilatı 2,5 faiz artaraq təxminən 33 milyard kubmetr olub.

AZƏRTAC Energetika Nazirliyinin yaydığı məlumata istinadla xəbər verir ki, qazın 8,7 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" (AÇG), 18,1 milyard kubmetri "Şahdəniz", 1,1 milyard kubmetri Abşerondan, 5,1 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında təqribən 0,8 milyard kubmetr artım qeydə alınıb.

Hesabat dövründə xaricə qaz satışı təxminən 16,4 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 3,1 faiz çoxdur. Cari ilin yanvar-avqust aylarında Türkiyəyə təqribən 6,5 milyard kubmetr (3,1 faiz az), Avropaya təqribən 8,4 milyard kubmetr (10,5 faiz çox), Gürcüstana isə 1,5 milyard kubmetr (eyni həcmdə) qaz satılıb. Qeyd olunan dövrdə Türkiyəyə TANAP-la bu müddətdə 3,7 milyard kubmetr (2,6 faiz az) qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən sentyabrın 1-dək 643 milyon ton neft (kondensatla birlikdə), 452,2 milyard kubmetr qaz hasil edilib. AÇG-dən 595,8 milyon ton neft, 225 milyard kubmetr qaz hasil olunub. "Şahdəniz"dən isə 227,2 milyard kubmetr qaz, 47,2 milyon tona yaxın kondensat hasil edilib. Bu yataqlardan indiyə kimi təqribən 641,2 milyon ton neft (kondensatla birlikdə), təxminən 162 milyard kubmetrə yaxın qaz ixrac edilib.

# Azərbaycanda bank sahəsində ciddi inkişaf potensialı mövcuddur

Bu barədə Barings-in icraçı direktoru Lemer Salah "Chain Reaction 2024" forumunda "Web 3 və onun sabit gəlir bazarına təsiri" təqdimatında bəyan edib.

"Azərbaycanda iqtisadiyyat hazırda kifayət qədər sabit göstəricilər nümayiş etdirir. Bu, ölkəyə həm dövlətin, həm də bank sektorunun maliyyə balansında güclü mövqelərdən effektiv istifadə edərək daha çox birbaşa xarici sərmayə (FDI) cəlb etməyə imkan verir. Azərbaycana Asiyada, Latın Amerikasında və Yaxın Şərqdəki inkişaf etməkdə olan bazarlarla müqayisə edərkən, ölkənin bank sahəsində ciddi inkişaf potensialına malik olduğu açıq-aydındır. Güclü iqtisadiyyat, sabit gəlirlər və mərkəzləşdirilmiş idarəetmə daha da inkişaf üçün mükəmməl şərait yaradır.

Bu yolda əsas addımlardan biri, daha çox FDI cəlb etmək məqsədilə istiqrazların buraxılması olmalıdır. Bu, yalnız bank sektorunun möhkəmlənməsinə deyil, həm də onun daha da inkişafına töhfə verəcək. Bundan əlavə, ölkə blockchain və digər müasir texnologiyalar kimi yeni iqtisadi seqmentlərə 'keçid' imkanlarına malikdir. Bu addım Azərbaycanın yeni kapital bazarını yaratmasına və iqtisadi inkişafını sürətləndirməsinə imkan verəcək", - o bildirib.

Onun sözlərinə görə, Azərbaycanın reytinqi bir sıra ölkələrdən daha yüksəkdir.

# Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması layihəsində AYİB-in iştirakı müzakirə olunub



İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkiyə və Qafqaz üzrə yeni idarəedici direktoru Elizabeta Falçetti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın AYİB-lə müxtəlif istiqamətlər üzrə uğurlu əlaqələri vurğulanıb. Qeyd olunub ki, qarşıya qoyulmuş inkişaf hədəflərinin reallaşdırılması istiqamətində əməkdaşlıq imkanları genişdir. Bu kontekstdə bankla enerji, xüsusilə bərpa-olunan və alternativ enerji, özəl sektorun inkişafı, infrastruktur və digər istiqamətlər üzrə prioritet layihələrin icrası məqsədilə atılacaq addımlar müzakirə edilib.

Tərəflər AYİB-in Azərbaycanda dövlət–özəl tərəfdaşlığı layihələrində, o cümlədən dəniz suyunun duzsuzlaşdırılması layihəsində iştirakı ilə bağlı məsələləri, eləcə də COP29 çərçivəsində AYİB ekspertlərinin iştirakı məsələlərinə dair fikir mübadiləsi aparıblar.

# Alimlər sosial şəbəkələrdə niyə aktiv deyil?




Xaricdə yaşayan azərbaycanlı alimlərin forumunda çıxışı zamanı ETN naziri E.Əmrullayev alimlərə irad bildirib. Nazir alimlərin sosial şəbəkələrdən uzaq olduğunu deyib: ***“Hərdən alimlərə sual verirəm ki, niyə sosial şəbəkələrdə aktiv deyilsiniz?”***

Nazir bir müddət əvvəl də deyirdi ki, biz alimləri iclaslara dəvət etmirik. Çünki onların vaxtına dəyər veririk, qoy onlar elmlə məşğul olsunlar. Amma bunun, həqiqətən, də alimlərin vaxtına qənaət məqsədi ilə edildiyi inandırıcı deyil. Əslində, bu, alimin vaxtını dəyərləndirməyin yox, elmə, alim sözünə, alim rəyinə biganəliyin göstəricisidir.

Çünki alim məclisində söz demək, fikir bildirmək, müzakirə aparmaq çətindir, məsuliyyətlidir.

Alimin vaxtına real dəyər verənlər gərək alimə elə maaş versinlər ki, o, dolanmaq üçün vaxtını elmə aid olmayan başqa fəaliyyətlərlə sərf etməsin (repetitorluq, əlavə dərs demək və s.). Alim gərək qiymətli vaxtını yalnız elmə sərf etsin. Amma bunu görmürük.

Bəs alimlər müxtəlif ölkələrə konfranslara gedirlər, bir neçə gün konfranslarda vaxt itirirlər (əksər hallarda də heç ezamiyyə pulu da verilmir, ya qarşı tərəfin maliyyəsi hesabına, ya da alimin az maaşından ayırdığı şəxsi vəsaiti hesabına). Yəni, bu konfransların təşkilatçıları iştirakçı 150-200 alimin vaxtını dəyərləndirmirlər?

İndi də alimləri sosial şəbəkələrə dəvət edirlər. Bəs alimin sosial şəbəkələrdə itirdiyi vaxt “vaxt” deyil? Burda itiriləcək vaxta niyə dəyər verilmir?

Sosial şəbəkə elmi platforma deyil. Burada yalnız əvvəlcədən yaradılmış kiçik qruplarda (peşəkar forumlarda) maraqlı tərəflər üçün elmi tədqiqatların gedişi və ya nəticələri barədə məlumat paylaşmaq olar. Bunun üçün isə əvvəlcə elmi tədqiqat aparılmalıdır ki, nəticələr olsun, müzakirələr aparılsın. Elmi tədqiqat isə maliyyə tələb edir. Maliyyə olmasa, tədqiqat da olmaz.

Elm zəif maliyyələşən ölkələrdə elmin inkişaf vektorlarından biri də elm və təhsilin inkişafına ayrılan qrantlardır. ETN 2 ildir yaradılıb. Bu müddətdə alimlərə neçə qrant verilib? Gəlin bunları müzakirə edək. Deyəcəklər ki, maliyyə azdır, bəs onda özəl biznesə, özəl uşaq bağçalarına niyə 3,5 milyon qrant verirsiniz?

Elm yalnız investisiya əsasında inkişaf edə bilər.

Cənubi Koreyanın illik elm xərci 95 milyard $, bizim illik elm xərcimiz isə 95 milyon $ təşkil edir. Fərq 1000 dəfədir. Gəlin bundan danışaq. Onlar ildə 21000, biz isə 30 patent alırıq.

C.Koreyada, Çində elmə ÜDM-in 2,5%-3%-i, bizdə isə 0,2%-i ayrılır. Çində elmə ayrılan büdcə ildə 10% artır.

Dünyanın TOP-500 Elmi Tədqiqat Mərkəzi (ETM) siyahısında bizim bir elmi mərkəzimiz yoxdur.

Elmi kadrların kəmiyyət və keyfiyyət baxımından təkmilləşdirilməsinə ehtiyac var. Universitetlərimizdə işləyən müəllimlərimizin cəmi 45%-i alimdir, bu rəqəm ilbəil azalır, çünki gənclərin elmə gəlməyə heç bir stimulu yoxdur, həm də doktoranturaya qəbul proseduru və tələbləri ölkənin zəif təhsil sisteminin səviyyəsindən xeyli yüksəkdir (xüsusən də xarici dil imtahanı bir kabusa çevrilib). Elmə gələnlərin də böyük əksəriyyəti qadınlardır. Bu problemlərin müzakirəsi sosial şəbəkələrdə iştirakdan daha vacibdir.

Əgər elm normal maliyyələşməsə, elmi nəticələr olmayacaq. Bəs maliyyə və elm yoxdursa, onda nə edək?

Onda alimlər maliyyəsiz apardıqları “tədqiqatları” pulsuz sosial şəbəkələrdə müzakirə etsinlər? Bunun üçünmü alimlərimiz sosial şəbəkələrdə “aktiv” olmalıdırlar?

**İlham Əhmədov,**
**təhsil eksperti, Azərbaycan Pedaqoji Universitetinin dosenti**

# Vergi Məcəlləsinin yeni strukturunun hazırlanması məqsədilə təkliflərin qəbulu həyata keçirilir

Son illər aparılan uğurlu islahatlar, aparıcı dünya praktikası ilə uzlaşan yeni vergi sisteminə keçid, ölkənin 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasının icrası, vergi sisteminin səmərəliliyinin artırılması mövcud Vergi Məcəlləsinin daha da rəqabət qabiliyyətli və anlaşılan olmasını, bir sıra məsələlərin detallı tənzimlənməsini və mövcud maddələrin tərkib elementlərinin təkmilləşdirilməsini zəruri edir.

Dövlət Vergi Xidmətindən bildirilib ki, əlverişli biznes mühitinin yaradılması, habelə dövlət-biznes münasibətlərində qarşılıqlı etimadın artırılması baxımından biznes nümayəndələri ilə fikir mübadiləsinin aparılması, onların rəy və təkliflərinin, qarşılaşdığı çətinliklərin, qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi prosesində onların təkliflərinin dinlənilməsi və öyrənilməsi məqsədilə sahibkarlıq subyektləri ilə mütəmadi olaraq sahəvi görüşlər keçirilib.

Həmin görüşlərdə irəli sürülən bir sıra təkliflər uğurlu təcrübələr də nəzərə alınmaqla vergi qanunvericiliyində aparılmış dəyişikliklərdə öz əksini tapıb.

Bu baxımdan sahibkarlar, sahəvi assosiasiyalar, bütövlükdə biznes və ictimaiyyət tərəfindən qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təqdim ediləcək təkliflər xüsusi önəm daşıyır.

Bu çərçivədə Dövlət Vergi Xidməti qarşıdakı 1 ay ərzində vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə əlaqədar ölkədə biznesin inkişafına təkan verəcək, sahibkarlıq fəaliyyəti zamanı ortaya çıxan çətinliklərin həllinə yönəlmiş Vergi Məcəlləsində tənzimlənməyən, habelə Vergi Məcəlləsində olub təkmilləşdirilməsi zəruri hesab edilən istiqamətlərə dair əsaslandırılmış təkliflərin qəbuluna başlayır.

Bununla bağlı vətəndaşlar, biznes ictimaiyyəti və vergiödəyiciləri tərəfindən təkliflərin təqdim edilməsi üçün Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində ayrıca bölmə yaradılıb. Rəsmi internet səhifəsində və sosial şəbəkələrdəki rəsmi səhifələrində həmin bölməyə xüsusi keçid linkləri yerləşdirilib:

Biznes cəmiyyəti və sahibkarlar vergi qanunvericiliyinin təkmilləşdirilməsi prosesinə öz töhfəsini verməyə dəvət olunur.

# Bu il ölkədə yeni nəsil NKA-lar ilə 15 milyard manatdan çox dövriyyə qeydə alınıb

Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlər davam etdirilir.

Dövlət Vergi Xidmətindən bildirilir ki, indiyədək ölkə ərazisində 100 min 637 ədəd yeni nəsil NKA quraşdırılıb.

Yeni nəsil NKA-dan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.

Cari ilin yanvar-avqust ayları ərzində yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 15,6 milyard manatdan artıq olub ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,4 milyard manatdan, yaxud 10,2 faizdən çoxdur.



# “Azərbaycan “yaşıl” energetikaya keçidə böyük əhəmiyyət verir”



Bu barədə Azərbaycan demokratik tələbə gənclər təşkilatının sədri Asif Əsgərli Bakıda keçirilən “Gənc liderlər vasitəsilə ekoloji siyasətə dəstək” beynəlxalq gənclər forumunda deyib.

Onun sözlərinə görə, Azərbaycan yalnız neft və qaz ixrac etməklə kifayətlənmir, həm də “yaşıl” enerji, “yaşıl” iqtisadiyyat və “yaşıl” fəlsəfənin inkişafı üçün səylər göstərir.

***“Bugünkü dövrdə dünyada narahatlıq yaradan qlobal ekoloji problemlər mövcuddur. Xarici nümayəndələr də Bakıya gəlib, bu mövzuda öz baxışlarını və fikirlərini bölüşürlər”***, – o qeyd edib.

O, Azərbaycanın “yaşıl” iqtisadiyyata keçidinin ölkənin prioritetlərindən biri olduğunu vurğulayıb. İqlim dəyişmələri ilə mübarizəyə dünyanın müxtəlif yerlərində vətəndaş cəmiyyəti və gənc liderlər qoşulub.

Qeyd edək ki, forum 18 ölkədən 24 gənc liderin, həmçinin Azərbaycanın 60-dan çox gənclər təşkilatlarının rəhbərlərinin, dövlət qurumlarının nümayəndələrinin, mütəxəssislərin və digər qonaqların iştirakı ilə keçirilir.

Qeyd edək ki, forum Azərbaycan Gənclər Fondunun, “Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı” ictimai birliyinin və Gənclər Təşkilatları Milli Şurasının dəstəyi ilə keçirilir.

Forum 13 sentyabr tarixinədək davam edəcək.

# Naxçıvanda “yaşıl enerji”nin istehsalı artıb




2024-cü ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində olan elektrik stansiyalarının texniki-iqtisadi göstəriciləri açıqlanıb.

Trend bu barədə Naxçıvan Dövlət Energetika Xidmətinə istinadən xəbər verir ki, müvafiq dövr ərzində istehsal olunan ümumi elektrik enerjisinin 55%-i alternativ və bərpa olunan enerji mənbələrinin payına düşür.

2024-cü ilin yanvar-avqust ayları üzrə istehsal olunan ümumi elektrik enerjisinin:

- 45%-i istilik elektrik stansiyalarında;
- 42%-i su elektrik stansiyalarında;
- 13%-i günəş elektrik stansiyalarında istehsal olunaraq elektrik şəbəkələrinə ötürülüb.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə alternativ və bərpa olunan enerji mənbələrində istehsal olunan elektrik enerjisinin payı 20%-ə yaxın artıb.

# Aktiv ƏDV ödəyicilərinin sayı artıb

2024-cü ilin sentyabrın 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 3% artaraq 784,8 min, aktiv ƏDV ödəyicilərinin sayı 10,4% artaraq 50,4 min olub. Trend bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir. Qeyd edilib ki, aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 3,1% artaraq 211 min təşkil edib.

# Əhalinin hər bir nəfəri pərakəndə ticarət şəbəkələrindən orta hesabla ayda 456 manatlıq mal alıb

Cari ilin yanvar-avqust aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 37,2 milyard manatlıq, o cümlədən 20,6 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 16,6 milyard manatlıq qeyri-ərzaq malları satılıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən ilin yanvar-avqust ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,9 faiz, qeyri-ərzaq malları üzrə 5,5 faiz artıb.

Bu ilin yanvar-avqust aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,8 faizi ərzaq məhsullarının, 4,5 faizi içkilər və tütün məmulatlarının, 13 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,7 faizi avtomobil benzini və dizel yanacağının, 4,9 faizi elektrik malları və mebellərin, 2,2 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Hesabat dövründə qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,5 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil edib.

2023-cü ilin yanvar-avqust ayları ilə müqayisədə 2024-cü ilin yanvar-avqust aylarında pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 10,1 faiz, fərdi sahibkarlar üzrə 0,4 faiz, bazar və yarmarkalarda 2,2 faiz artıb.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 456,1 manatlıq, o cümlədən 252,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 203,9 manatlıq qeyri-ərzaq malları alıb.

# Bu il ölkədə sənaye məhsulu istehsalı 42 milyard manatı ötüb

Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən cari ilin yanvar-avqust aylarında 42,4 milyard manatlıq sənaye məhsulu istehsal edilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorunda məhsul istehsalı eyni səviyyədə qalıb, qeyri-neft-qaz sektorunda isə 7,8 faiz artıb.

Sənaye məhsulunun 64,4 faizi mədənçıxarma sektorunda, 29,9 faizi emal sektorunda, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,4 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 4,1 faiz artıb.

Emal sektorunda kompüter, elektron və optik məhsulların istehsalı 72,2 faiz, əczaçılıq məhsullarının istehsalı 69,4 faiz, elektrik avadanlıqlarının istehsalı 39,9 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 36,7 faiz, mebel istehsalı 31,9 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 27,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 23,8 faiz, hazır metal məmulatlarının istehsalı 23,3 faiz, tikinti materiallarının istehsalı 23 faiz, içkilərin istehsalı 16,5 faiz, tütün məmulatlarının istehsalı 11,2 faiz, kimya sənayesi məhsullarının istehsalı 8,7 faiz, kağız və karton istehsalı 7,2 faiz, qida məhsullarının istehsalı 7,1 faiz, neft məhsullarının istehsalı 3,1 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 1 faiz artıb, geyim istehsalı 0,4 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 8 faiz, sair sənaye məhsullarının istehsalı 8,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 10,3 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 14,4 faiz, poliqrafiya məhsullarının istehsalı 19,9 faiz, maşın və avadanlıqların istehsalı 29,6 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 52,6 faiz azalıb.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,1 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 8,8 faiz artıb.

*Bu maraqlıdır*

# "Yaşıl" evlər və ya tikintidə ekotexnologiyalar



İnsan göydələndə də yaşasa, nə qədər komfortlu mənzili olsa da, daim təbiətlə təmasda olmağa meyillidir. Belə bir deyim də var: **"Gözlərinizə istirahət vermək istəyəndə yaşıllığa baxın".** Bu gün şəhərsalmada fundamental elmi sahələrdən biri də yaşıl evlərin, obyektlərin, qəsəbələrin layihələndirilməsidir.

Müasir memarlığın az qala leytmotivinə çevrilmiş ekoloji cəhətdən təmiz, "yaşıl" tikinti artıq bütün dünyada geniş yayılır. Ekotexnologiyalar heç də geridə qalmır, təkcə nəhəng dizayn müəssisələri arasında deyil, həm də özəl mülkiyyətçilər arasında getdikcə populyarlaşır. Bəs "yaşıl ev" deyəndə, nələr nəzərdə tutulur? Gəlin, bu barədə bir az söhbət edək. Hansı binalar, evlər, obyektlər "yaşıl" sayıla bilər?

**Zərər vermə!**

Yaşıl bina konsepsiyasının əsas prinsipi binanın ətraf mühitə təkcə yerli deyil, həm də qlobal miqyasda minimal təsiridir. Belə neytrallıq əsasən tikinti zamanı ekoloji cəhətdən təmiz materiallardan istifadə etməklə, eləcə də istismar zamanı enerji resurslarına qənaət etməklə əldə edilir. Yəni, evin özü ətraf mühitə zərərli maddələr buraxmır və ev təsərrüfatlarının üzvlərində allergiyanın inkişafına səbəb olmur. Onun istilik sistemi atmosferi kubmetrlərlə yanma məhsulları ilə doldurmur.

Mövcud Avropa və yerli standartlara görə, ev yerin rahatlığı, ağıllı idarəetmə və həyat dövrü dəyəri kimi meyarların bütün siyahısına cavab verərsə, "yaşıl" hesab ediləcək. Lakin beynəlxalq sertifikatlaşdırmaya məruz qalma ehtimalı az olan, lakin ekoloji cəhətdən təmiz olduğunu iddia edən fərdi evlər üçün iki əsas qiymətləndirmə meyarı tətbiq olunur:

- ***Tikinti işlərində hansı materiallardan istifadə edilmişdir.***
- ***Enerji səmərəliliyi.***

**Materiallar**

Ekoevlərin tikintisində ən çox yayılmış material həm əsas istehlak materialı kimi, həm də daş və şüşə ilə eyni dəyərdə olan ağacdır. Ekoüslubun əsas vizual təzahürlərindən biri müvafiq interyerə malik taxta evlərdir. Ancaq bu, sadəcə görünüşdür. Karkas texnologiyalarından olan evlər də (üzlüyü ağacdan, iç tərəfi samandan (gil ilə samanın qarışığı) və ya kərpicdən) ekoloji cəhətdən təmiz hesab edilə bilər.

Əgər şəhərdən kənarda yaşamağa qərarlısınızsa, eviniz də şəhərətrafı yaşayış yeri kimi görünsə, gözəl olar. Bu evi tikərkən maksimum dərəcədə təbii materiallardan istifadə edin. Zahiri görünüş üçün taxta və daşlardan istifadə evə xüsusi gözəllik verəcək.

Dam örtüyü kimi metal plitələr də ekoloji texnologiyalar çərçivəsindən kənara çıxmır, çünki müasir polimer örtüklər hətta isti havalarda heç bir maddə buraxmır və materialın özü uzun xidmət müddətinə malikdir. Davamlılıq ən vacib aspektlərdən biridir - örtüyü nə qədər az dəyişdirməli olursansa, təmir xərcləri bir o qədər aşağı olur.

Ətraf mühitə uyğunluğu qiymətləndirərkən, xarici örtüyə çox diqqət yetirilir - kimyəvi cəhətdən aktiv boyalar və laklar, müxtəlif formaldehid əsaslı lövhələr və linoleum ilə vinil istifadə etsəniz, taxta evin üstünlükləri inkar edilə bilər. Kimyəvi maddələr olmadan tamamilə etmək demək olar ki, mümkün deyil, ancaq həlledici əsaslı laklar və boyaları yağ əsaslı və su əsaslı kompozisiyalarla əvəz etsəniz və hamarlama və arakəsmələr üçün gips və ya sement əsaslı plitələrdən istifadə etsəniz, otaqda daha sağlam mikroiqlim olacaq. Evdə və ya ofisdə təmir və ya bəzək işləri sifariş edərkən, bunun bizə nə qədər xidmət edəcəyini, inşaatçıların səhv edib-etməyəcəyini, dizaynın ahəngdar olub-olmayacağını düşünürük. Və çox nadir hallarda özümüzə sual veririk ki, müəyyən tikinti və bəzək materiallarının təmirdə və ya örtük işlərində istifadəsi sağlamlığa necə təsir edəcək? Onlar dəbli görünürlər və təmizləmək asandır, lakin bir çoxları sağlamlığımıza xələl gətirə bilər.

**Enerji səmərəliliyi**

Ekoloji texnologiyalara münasibətdə enerjiyə qənaət edən evlər passiv olmalı və enerji sərfiyyatı sıfır olmalıdır. Qışda istilik və yayda kondisioner üçün enerji istehlakı minimuma endirilən bir ev passiv sayılır. Bu cür göstəricilər binada olan birləşdirici konstruksiyalar vasitəsilə istilik itkisini azaltmaqla, həmçinin germetik qapı və pəncərələrin quraşdırılması ilə əldə edilir. Pəncərə ventilyasiyası və ön qapıdan hava axını ilə deyil, ideal olaraq rekuperator ilə xüsusi bir sistemlə təmsil olunan havalandırmanın olması enerji səmərəliliyi baxımından da vacibdir. Belə bir sistem içəridəki istiliyi saxlayır və eyni zamanda təmizləyir.

İstilik itkisini azaltmaq üçün müxtəlif istilik izolyasiya materiallarından istifadə olunur. Ancaq bu gün izolyasiya materiallarının böyük bir seçiminin olmasına baxmayaraq, onların heç də hamısı ekoloji cəhətdən təmiz deyil. Bazalt pambığının təhlükəsizliyi ilə bağlı hələ də mübahisələr var. Eyni zamanda, bütün köpük plastik törəmələrinin heç də hamısı ekotexnologiyalara uyğun gəlmir. Saman blokları, yonqar, ekopambıq, kətan, jüt və ya çətənə və digər təbii materiallardan istifadə daha yararlıdır.

Sıfır istehlaka gəlincə, söhbət bərpa olunan enerji mənbələrində işləyən avtonom sistemlərdən gedir, ən çox yayılmış günəş panelləri və külək generatorlarıdır. Onlarda həm istilik, həm də isti su təchizatı kənar tərəfin resurslarından sərbəst olmalıdır. Prinsip etibarilə, odunla yandırılan kərpic sobası da sərbəstdir. Lakin bu proses zamanı yanma məhsulları atmosferə buraxılır, buna görə də bu seçim uyğun deyil. Enerji daşıyıcılarından başqa, sıfır istehlakı olan evlərdə təmizləndikdən sonra kommunal şəbəkələrə və ya məişət ehtiyaclarına gedən yağış və qardan ərimiş suların toplanması sistemləri də olmalıdır.

Təcrübədə effektiv izolyasiya və minimum enerji istehlakı ilə təbii materiallardan kifayət qədər ekoloji cəhətdən təmiz evlərimiz varsa, sıfır istehlakı olanlar tapılsa da, çox azdır.

Qazlı kül betonda da zərərli maddələr də yoxdur, bu da ekoüslub üçün bir material ola bilər. Və belə bir evdə arakəsmələr silikat və ya gips dilli və yivli plitələrdən hazırlana bilər.

Yaşıl evin fasadı, dam örtüyü yaşıl bitkilərlə bəzədildikdə bu həm dəbli görünür, həm göz oxşayır, həm də havanı təmizləyir. İnsanlar dam örtüklərini, fasadları, terrasları yaşıllıqlara bürüdükcə, yaşadıqları qəsəbələrin, şəhərlərin atmosferi oksigenlə zənginləşər.

Yaşıl ev praktikada tətbiq oluna bilən maraqlı bir texnologiyadır. Hələlik təbii materiallardan eko-tikinti bahalıdır. Lakin resursların səmərəli istifadəsi ilə bina ilk onillikdə öz xərcini ödəyir.

**Yeganə Məmmədova**

# Dr.E.Hacıbalayev: "Hipertoniyanı aradan qaldırmaq üçün həyat tərzini tamamilə dəyişmək lazımdır"

***Yüksək qan təzyiqi ən təhlükəli xəstəliklərdən biri sayılır. Ürək-damar sistemi xəstəlikləri riskinin ən mühüm faktorlarından biri hipertoniya – yüksək qan təzyiqidir. Yüksək qan təzyiqi, ürək tutmalarının və insultların əsas səbəbi olan arterial hipertoniyanın əlamətləri, ondan qorunmaq yolları, qan təzyiqinin normada saxlanılması və tənzimlənməsi üsulları ilə əlaqədar Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin invaziv kardioloqu Emin Hacıbalayev suallarımızı cavablandırıb.***



**- Həkim, arterial hipertoniya nədir?**

- Hipertoniya qan təzyiqinin həddindən artıq artması və ya yüksəlməsi deməkdir. Qan təzyiqi deyiləndə qanın damarların divarlarına etdiyi təzyiq nəzərdə tutulur. Hipertoniya qan təzyiqinin davamlı artmasıdır. Onun həm müxtəlif xəstəliklərin əlaməti olaraq, həm də naməlum səbəblərdən yaranması mümkündür. Vaxtında müalicə edilməyən hipertoniya infarkta, ürəyin genişlənməsinə və nəticədə ürək çatışmazlığına səbəb olur. Hipertoniya qan təzyiqinin 140/90-dan yuxarı davamlı artması ilə müşayiət olunan patoloji haldır və getdikcə irəliləyən xarakter daşıyır. Ona görə də bu xəstəliyi daim həkim nəzarətində saxlamaq lazımdır.

**- Normal təzyiq nə qədər olmalıdır? Hipertoniya diaqnozu nə zaman qoyulur?**

- Arterial təzyiq sistolik və diastolik olmaqla iki qrupa bölünür. Normal arterial təzyiq 120/70 millimetr civə sütunu olmalıdır. Gənc yaşlarda qan təzyiqi 90/60 və 120/80 millimetr civə sütununa bərabər olmalıdır. Daha yaşlı insanlarda bu rəqəm artır. Arterial təzyiq arteriyaların və ya onların kiçik damarlarının - arteriolların daralması baş verdikdə yüksəlir. Hipertoniya diaqnozu iki fərqli gündə aparılan təzyiq ölçmələrinə əsasən, hər iki gündə sistolik təzyiqin 140 millimetr Hg-ə bərabər və ya ondan çox olduğu hallarda qoyulur. Birincisi (sistolik təzyiq) ürək əzələsinin yığılması zamanı, ikincisi isə (diastolik təzyiq) ürəyin iki yığılma arasında yaranan təzyiqin göstəricisidir. Qan təzyiqi bədəndəki qanın ən vacib qan damarları olan arteriyaların divarlarına göstərdiyi təzyiqdir. Qan təzyiqinin səviyyəsi insan sağlamlığının ən yaxşı göstəricilərindən biridir. Hipertoniya qan təzyiqinin həddindən artıq artması, yüksəlməsi ilə xarakterizə olunur.

**- Hipertoniya xəstəliyinin yaranma səbəbi nədir?**

- Qan təzyiqinin qalxmasının başlıca səbəbi qan axınına çətinlik yaradan kiçik damarların daxilində boşluğun azalmasıdır. Sadə dildə desək, bu zaman qan damarlarının divarlarına təzyiq artır, arterial təzyiq yüksəlir, çünki ürək əzələsi qanı axına itələmək üçün daha çox qüvvə tələb edir. Xəstəliyin inkişaf riskinə xəstənin yaşı, xolesterinin səviyyəsi (6,5 mmol/litrdən artıq), qohumlarda ürək-damar xəstəlikərinin olması, siqaret çəkmək, piylənmə, şəkərli diabet, yaşlı insanlarda oturaq həyat tərzi kimi amillər aiddir.

Hipertoniya xəstəliyinin yaranma səbəblərinə, həmçinin yağlı və duzlu yeməklərdən, un məmulatlarından, şəkərdən çox istifadə aiddir. Hipertoniya xəstəliyi birincili və ikincili olmaqla iki yerə bölünür. Birincili hipertoniya essensial hipertoniya adlanır. İkincili hipertoniya orqanların zədələnməsi nəticəsində baş verir. Məsələn, qalxanabənzər vəzin zədələnməsi, böyrəklərdə baş verən dəyişikliklər, parinxamotoz mənşəli pozuntular, həmçinin, böyrəyin damar sistemində baş verən dəyişikliklər, böyrək arteriyasının stenozu və sair. Bundan başqa, böyrəküstü vəzdə baş verən dəyişikliklər, patoloji proseslər təzyiqin yüksəlməsinə səbəb ola bilər.

**- Hipertoniyanın tipik əlamətləri hansılardır?**

- Hipertoniyanın tipik əlamətlərinə səhər tezdən baş ağrıları, burun qanamaları, ürək ritminin pozulması, bulanıq görmə, qulaqlarda cingilti, eləcə də zəiflik, ürəkbulanma, qusma, sinə ağrısı, əzələ titrəməsi və sair aiddir. Ondan əziyyət çəkənlərin çoxu problemin olduğunu bilmir, çünki hipertoniya heç bir əlamət olmadan və simptomsuz keçə bilər. Buna görə də belə hallara şübhə yaranarsa, qan təzyiqini mütəmadi ölçmək vacibdir.

Bəzi hallarda hipertoniya, səhər tezdən baş ağrıları, burun qanamaları, anormal ürək döyünməsi, bulanıq görmə və qulaqlarda cingilti ilə müşayiət oluna bilər.

**- Hipertoniyanın müalicəsi necə aparılır?**

- Hipertoniyanın müalicəsi mürəkkəbdir və xəstəliyin səviyyəsi, xəstənin cinsi, yaşın və digər amillərdən asılıdır. Dərmanlar yalnız təzyiqi azaltmağa kömək edir. Belə ki, xəstəliyin səbəbini aradan qaldırmaq üçün həyat tərzinizi tamamilə dəyişmək tələb olunur. Bunun üçün pis vərdişlərdən uzaq olmaq, siqaret və alkoqollu içkilərdən birdəfəlik qurtulmaq, düzgün və sağlam qidalanmaq, açıq havada gəzmək lazımdır. Məhz belə yaşam tərzi nəticəsində həyati təhlükəsi olan ağırlaşmaların başlanğıcını uzun müddət təxirə salmaq mümkündür. Bir çox halda həyat tərzinin dəyişikliyi, qəbul edilən duzun miqdarının azaldılması və hərəkətliliyin artırılması ilə təzyiqi dərman müdaxiləsinə ehtiyac olmadan nəzarətdə saxlamaq mümkündür.

**- Ağırlaşmış hipertoniya xəstəliyi hansı fəsadlara səbəb olur?**

-Xəstəliyin ən ciddi fəsadlarından biri arterial və kəllədaxili təzyiqin kəskin artması, qusma, ürəkbulanma və baş ağrıları, serebrovaskulyar qəza ilə özünü göstərən hipertonik böhranlardır. Uzun müddətli hipertoniyanın əsas nəticəsi yaşlı insanda əlilliyin formalaşmasıdır. Hipertoniya, həmçinin beyni qan və oksigenlə təmin edən arteriyaları partladaraq və ya bloklayaraq insult yarada bilər. Ona görə də yüksək təzyiq mütləq şəkildə erkən diaqnoz qoyulub nəzarət altına alınmalıdır. Əgər uzun müddət ərzində qan təzyiqi nəzarət altında saxlanılmasa, damarlar zədələnə bilər. Bu trombların əmələ gəlməsinə və ağır hallarda damarın partlamasına - infarkt və insultlara səbəb olur.



**Müsahibəni apardı:**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**
**Dilarə Zamanova**

# "Bakcell" "Vodafone Group"la əməkdaşlıq edəcək

Ölkənin ən böyük özəl mobil operatoru "Bakcell" dünyanın aparıcı telekommunikasiya şirkəti "Vodafone Group"dan strateji tərəfdaşlıq dəstəyi alacaq.

Bu il "Vodafone" "Azerconnect Group" ilə tərəfdaşlıq müqaviləsi imzalayıb. Müqaviləyə əsasən "Bakcell", qrupa bağlı şirkət olaraq, xidmət təkliflərini artırmaq məqsədilə süni intellekt əsaslı həllər və qabaqcıl məhsullar da daxil olmaqla, "Vodafone" şirkətinin təcrübəsindən istifadə edəcək.

"Vodafone" 15 ölkədə 330 milyondan çox müştəriyə mobil və sabit şəbəkə xidmətləri təqdim edir, daha 45 ölkədə isə mobil şəbəkələrlə əməkdaşlıq edirik. Şirkət dünyanın ən böyük IoT platformalarından birinə malikdir. Afrika qitəsində "Vodafone" şirkətinin maliyyə texnologiyaları müəssisələri hazırda 7 ölkədə 79 milyondan çox müştəriyə xidmət göstərir. Bu da digər provayderin əməliyyatlarından daha çoxdur.

*"Bu əməkdaşlıq "Bakcell"in telekommunikasiya bazarında mövqelərini daha da gücləndirəcək və müştərilərimizə ən son innovativ həll yolları təqdim etməyimizə imkan verəcək. "Vodafone"la tərəfdaşlıq, həmçinin ölkədə rəqəmsal transformasiyanı sürətləndirəcək və yeni texnologiyaların tətbiqinə əhəmiyyətli töhfə verəcək"*, - deyə "Bakcell"in baş icraçı direktoru Klaus Müller bildirib.

"Vodafone"un Tərəfdaş Bazarları üzrə baş icraçı direktoru Petr Dvorjak isə öz növbəsində əlavə edib: ***"Biz telekommunikasiya şəbəkəsinin təkmilləşdirilməsi, əməliyyatların səmərəliliyi və müştəri xidmətləri sahəsində ən yaxşı təcrübələri bölüşmək məqsədilə dünyada bir sıra telekommunikasiya operatorları ilə əməkdaşlıq edirik. Biz qarşıdakı illər ərzində "Bakcell"lə birgə işləməyi səbirsizliklə gözləyirik. Əminik ki, bu əməkdaşlıq "Bakcell"in fərdi və korporativ müştərilərinə böyük fayda gətirəcək".***

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verməyə çalışır və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Azərbaycan "TikTok"da kontent monetizasiyasını vergiyə cəlb edə bilər

"Azərbaycan və "TikTok" arasında kontent monetizasiyasından əldə edilən gəlirlərin vergiyə cəlb olunması ilə bağlı danışıqlar son mərhələdədir".

Bunu Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov "Chain Reaction 2024" forumu çərçivəsində keçirilən "Rəqəmsal və metakainat iqtisadiyyatına giriş" adlı panel müzakirəsi zamanı bildirib.

*"Son illərdə Azərbaycan milli biznesin rəqabət qabiliyyətini artırmağa və onu yeni səviyyəyə çıxarmağa aktiv şəkildə çalışır, sahibkarlara dəstək olmaq üçün zəruri alət və infrastrukturu təmin edir. Dövlət öz strateji məqsədlərini aydın şəkildə müəyyən edir ki, bu məqsədlərə yalnız kiçik və orta müəssisələrin dəstəklənməsi deyil, eyni zamanda effektiv rəqəmsal ekosistemin yaradılması da daxildir. Bu sistemdə məlumatların emalı mərkəzləri, saxlama sistemləri, kibertəhlükəsizlik, eləcə də müxtəlif təşkilatları birləşdirən ödəniş sistemləri mühüm rol oynayır,"* - deyə o qeyd edib.

**ALLAH RƏHMƏT ELƏSİN**

Professor Elşən Hacızadə Xəyyam Fərzəliyeva atası
**OKTAY FƏRZƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**